

# Salam bayraq, salam torpaq, salam əsgər, yaşa komandan, şad olun şəhid ruhları…

## *Azad olunmuş torpaqlarımızda qaldırılan bayrağın gözəlliyini kim vəsf edə bilər ki?*

> ❒ ***Əziz xalqım, əziz zəngilanlılar, füzulilər, xocavəndlilər, cəbrayıllılar və işğal edilmiş digər rayonların sakinləri, biz öz missiyamızı yerinə yetiririk. Düşmənə layiqli cavab veririk. Düşməni cəzalandırırıq. Düşmən bizim qarşımızda acizdir. Düşmənin belini qırırıq, qıracağıq!***
>
> ***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa 20 oktyabr tarixli müraciətindən***

❒ ***Ulu öndərdən eşitdiyimiz ifadədir. Deyirdi ki, bizdə heç kəs ən yaxın adamına “siz” deyə müraciət etmir. Mən də eləyəm. Ona görə sərbəstcəsinə yazıram: “Sən mənim xalqımın qətiyyət zirvəsi oldun, əziz Ali Baş Komandan! Sən mənim yurdumun xilaskarı kimi tarixə düşdün, cənab Prezident! Sən Heydər Əliyev siyasət zirvəsinin nə demək olduğunu bütün dünyaya nümayiş etdirdin, İlham Heydəroğlu! Sən evindən-eşiyindən didərgin düşmüş yüz minlərlə insanın öz yurdunda işıq yandırmasını təmin edən qüdrət sahibi kimi tanındın, böyük insan!”***

Sentyabrın ortalarına qədər qələmə aldığımız yazılarda dönə-dönə xatırladırdıq ki, Prezident İlham Əliyevin qaçqın-köçkünlərin həyat şəraitini yaxşılaşdırmaq üçün yaratdığı şəhərciklərin sayı onlarcadır. İndi isə dövlət başçımızın məcburi köçkünlərimizin yurda qayıdacağı barədə xəbər verdiyi müraciətlərin sayı çoxalır. Dövlət başçımızın oktyabrın 20-də xalqa ünvanladığı müraciətdən dərhal sonra riqqətə gələn xanım həmkarlarımızdan biri – mən bilən, o, işğaldan azad edilmiş rayonlarımızdandır – sosial şəbəkədə yazdı: “Kağızına qurban olum, rəis! Sən hər dəfə kağıza əl atanda. Altından bir neçə kəndimiz və ya bir rayonumuz çıxır!”

Dövlət başçımızın bu müraciəti sözün həqiqi mənasında Azərbaycan xalqının sabaha – yeni Şuşanın, Xankəndinin işğaldan azad edilməsinə olan inamını birə min qat artırdı: “Əziz həmvətənlər, müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq”.

Son iyirmi gündə yüz minlərlə, bəlkə də milyonlarla insanın “İlham Əliyev, sən bizim tarix kitabımıza düşdün və tariximizi zinətləndirdin” deyə qiymətləndirdiyi dövlət başçımız özü də xoşbəxt olduğunu bu müraciətdə etiraf etdi: “ Mən çox şadam və mən xoşbəxt adamam ki, bu şad xəbərləri Azərbaycan xalqına çatdırıram. Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir. Bizim hərbçilərimiz şəhid olurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq. Bizim hərbçilərimiz döyüş meydanında yaralanırlar. Allah bütün yaralı hərbçilərimizə şəfa versin!”

Qocaman həmkarımız Telman Heydərov çoxsaylı dostlarının rayonu olan Zəngilanın işğaldan azad edildiyini eşidəndə dedi ki, İlham Əliyev bu böyük zəfərlərin təməlini Cocuq Mərcanlıya qayıdışla qoymuşdur. Dövlət başçımızın özü isə həmin reallığı belə qiymətləndirdi: “Öz doğma dədə-baba torpaqlarını görməyən, işğaldan sonra dünyaya göz açan hər bir azərbaycanlı bir arzu ilə yaşayıb ki, doğma dədə-baba torpaqlarına qayıtsın. Biz bunu Cocuq Mərcanlının timsalında gördük. İşğaldan sonra doğulmuş gənclər, onların hər biri Cocuq Mərcanlıya qayıtmaq arzusu ilə yaşayıb və qayıdıbdır. Əminəm ki, bu gün işğalçılardan azad edilmiş bütün torpaqlara Azərbaycan vətəndaşları qayıdacaqlar. O torpaqlarda yaşayacaqlar, sülh, əmin-amanlıq şəraitində yenə də qurub-yaradacaqlar”.

Azərbaycan vətəndaşları işğal olunmuş və azad edilmiş torpaqlara qayıdaraq rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar və bu torpaqlarda həyat canlanacaqdır”.

Təkcə biz – ölkə vətəndaşları deyil, beynəlxalq aləmdəki bütün tərəfdaşlarımız da yaxşı bilirlər ki, Azərbaycan Ordusunun bugünkü zəfərləri Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin siyasi-diplomatik fəaliyyətinin, ölkənin iqtisadi qüdrətinin artırılması üçün həyata keçirdiyi dövlət proqramlarının, vətəndaş cəmiyyətinin ən yüksək səviyyədə demikratikləşdirilməsi üçün reallaşdırdığı genişmiqyaslı islahatların, şəxsi dostluq münasibətlərinin və digər keyfiyyətlərinin nəticəsidir. Bunu hamı bilir və etiraf edir. Amma cənab Prezident bütün bu uğurların mənbəyinin xalqın ona göstərdiyi inam və etimadın olduğunu söyləyir:

“Xalq tərəfindən mənə göstərilən etimad imkan verdi ki, biz bu məsələni həll edək. Mən bir daha bəyan edirəm ki, verilmiş bütün vədləri mən yerinə yetirirəm, verilmiş bütün vədlərə sadiqəm. Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik”.

Mən bu müraciətdə gördüyüm başqa bir həqiqəti də mütləq qələmə almaq istərdim. Belə ki, dövlət başçımız səmimi şəkildə etiraf etdi ki, bəzi hallarda torpaqların azad edilməsinə inanmayanlar da var idi: “Mən gördüm, bəzi hallarda bu hadisələrə qədər Azərbaycan vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir. Mən isə həmişə onlara izah edirdim ki, bu, beynəlxalq qanun çərçivəsində həll olunası bir məsələdir. Buna görə biz bütün aparıcı beynəlxalq təşkilatlarla işləməliyik ki, bu münaqişənin həlli üçün hüquqi bazanı genişləndirək. … Biz böyük səylər göstərdik, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar qətnamə qəbul etdi. Avropa İttifaqı ilə bizim aramızda paraflanmış sənəddə də sərhədlərimizin toxunulmazlığına, suverenliyimizə və ölkəmizin ərazi bütövlüyünə dəstək göstərilir. Yəni, budur bu münaqişənin həlli üçün əsas”.

Nəticə isə göz qabağındadır. Xalqın arzuladığı həmin məqamı Prezidentin öz dilindən eşitməyin ayrı bir qüruru, iftixarı var idi: “Füzuli rayonu – azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu – azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!”

Müraciətin həmin sətirlərini eşidəndə istər –istəməz ürəyimdən bu sözlər keçdi: “Salam bayraq, salam torpaq, salam əsgər, yaşa komandan, şad olun şəhid ruhları…!”

Qarabağ Azərbaycandır! Daha böyük zəfərlər barədə yazacağıq! İnşallah!

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***